**“Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında**

“Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının icrasının tam və vaxtında təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. “Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının icrasının təmin edilməsi ilə əlaqədar “Azərbaycan Respublikası Rəqəmsal İnkişaf Konsepsiyası üzrə Energetika Nazirliyinin Fəaliyyət Planı” (bundan sonra – Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

2. Fəaliyyət Planında nəzərdə tutulan tapşırıqların məsul icraçılarına tapşırılsın ki, həmin tapşırıqların tam, vaxtında və mahiyyəti üzrə icrasını, həmçinin görülmüş işlər barədə məlumatların rübdə bir dəfə, növbəti ayın 3-dək Dövlət proqramları və layihələr sektoruna təqdim edilməsini təmin etsinlər.

3. Dövlət proqramları və layihələr sektoru:

3.1. rəqəmsal inkişafın əlaqələndirilməsi üçün rəqəmsal inkişaf üzrə məsul struktur bölmə müəyyən edilsin;

3.2. Rəqəmsal İnkişaf Operatoru ilə qarşılıqlı fəaliyyətin təşkilini təmin etsin;

3.3. Rəqəmsal İnkişaf Konsepsiyasından irəli gələn vəzifələrin icrası ilə bağlı görülmüş işlər barədə, həmçinin elektron xidmətlərdən istifadə ilə bağlı rüblük statistik məlumatların rübdə bir dəfə, hər rübdən sonrakı ayın 10-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə təqdim edilməsini təmin etsin;

3.4. Bu Əmrdən irəli gələn digər zəruri tədbirlərin yerinə yetirilməsini təmin etsin.

4. İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi:

4.1. Energetika Nazirliyində informasiya təhlükəsizliyinin gücləndirilməsi məqsədilə son istifadəçi kompüterlərini Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən qurulmuş, mərkəzləşdirilmiş antivirus mühafizə vasitəsi ilə, habelə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təqdim olunan lisenziyalı əməliyyat sistemləri və ofis proqramları ilə təmin edilməsi ilə bağlı zəruri tədbirlər görsün;

4.2. dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi, eləcə də elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi üzrə layihələrin icrasına dair illik planın hazırlanmasını, eləcə də Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin texniki və səmərəlilik baxımından məqsədəuyğunluq barədə rəyi alınmaqla hər ilin dekabr ayının 30-dək (2025-ci il üçün 30 may tarixinədək) təsdiq olunmasını və yenilənməsini təmin etsin.

5. Ümumi şöbə bu Əmrin surətinin Energetika Nazirliyi Aparatının bütün struktur bölmələrinə, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinə, Enerji Məsələlərini Tənzimləmə Agentliyinə və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə çatdırılmasını təmin etsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə edilsin.

**Nazir** **Pərviz Şahbazov**

17 aprel 2025-ci il
№ 3-15/3-2-213/2025

Azərbaycan Respublikası energetika nazirinin

2025-ci il 17 aprel tarixli 3-15/3-2-213/2025
nömrəli Əmri ilə
**təsdiq edilmişdir.**

## Azərbaycan Respublikası Rəqəmsal İnkişaf Konsepsiyası üzrə Energetika Nazirliyinin Fəaliyyət Planı

<table>
<tr><th colspan="2">№</th><th rowspan="2">Tədbirin adı</th><th rowspan="2">İcra müddəti</th><th rowspan="2">Əsas icraçı</th><th rowspan="2">Digər icraçılar</th><th colspan="3">Nəticə indikatorları</th></tr>
<tr><th>Sıra üzrə</th><th>Frəmanın Tədbirlər Planı üzrə</th><th>ilkin nəticələr</th><th>aralıq nəticələr</th><th>yekun nəticələr</th></tr>
<tr><td colspan="9">1.4. Rəqəmsal inkişafın tətbiqinin genişləndirilməsi</td></tr>
<tr><td>1.</td><td>1.4.2.</td><td>Rəqəmsal xidmətlərdən istifadəçi məmnunluğunun təmin edilməsi istiqamətində tədbirlər görülməsi</td><td>2025-2027</td><td>Dövlət proqramları və layihələr sektoru</td><td>İqtisadiyyat şöbəsi, İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi, BOEMDA, EMTA</td><td>Rəqəmsal xidmətlərdə istifadəçi məmnunluğunun ölçülməsi üçün alətin və meyarların formalaşdırılması</td><td>Rəqəmsal xidmətlərdə istifadəçi məmnunluğunun ölçülmə alətinin və meyarların dövlət orqanlarında (qurumlarında) tətbiqi</td><td>Rəqəmsal xidmətlərdə istifadəçi məmnunluğunun minimum 85%-ə çatdırılması</td></tr>
<tr><td>2.</td><td>1.4.3.</td><td>İdarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat,</td><td>2025-2027</td><td>Ümumi şöbə, Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsi, Maliyyə şöbəsi,</td><td></td><td>İdarəetmə proseslərinin rəqəmsallaşma prioritetlərinin müəyyən edilməsi</td><td colspan="2">Bütün əməliyyatların 80%-nin rəqəmsal şəkildə həyata keçirilməsi</td></tr>
</table>

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | təchizat və təminat) rəqəmsal şəkildə həyata keçirilməsi ilə bağlı tədbirlər görülməsi | | Təminat şöbəsi, BOEMDA, EMTA | | | | |
| **3.** | **1.4.6.** | Açıq məlumatlardan istifadənin genişləndirilməsi | Mütəmadi | Dövlət proqramları və layihələr sektoru | İqtisadiyyat şöbəsi, Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsi, İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi, EMTA, BOEMDA | “Açıq məlumatlar” portalına daxil edilməli olan məlumatların siyahısının müəyyən edilməsi | “Açıq məlumatlar” portalına açıq məlumatların daxil edilməsi və yenilənməsi | “Açıq məlumatlar” portalı vasitəsilə açıq məlumatların əldə edilməsinin təmini və həmin məlumatlardan innovativ həllərin hazırlanmasında istifadə olunması |
| **4.** | **1.4.7.** | Təşkil edilən və göstərilən elektron xidmətlərin siyahısı və onlardan istifadə ilə bağlı təlimat barədə ictimai məlumatlandırmanın təmin edilməsi | Mütəmadi | Dövlət proqramları və layihələr sektoru | İqtisadiyyat şöbəsi, İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi, EMTA | Elektron xidmətlərdən istifadə ilə bağlı təlimatlar hazırlanması | Göstərilən elektron xidmətlərin siyahısının və həmin xidmətlərdən istifadə ilə bağlı təlimatların orqanın (qurumun) rəsmi internet informasiya ehtiyatlarında və | Müvafiq siyahı və təlimatların zəruri olduğu hallarda yenilənməsinin və aktuallığının təmin edilməsi |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | “Elektron Hökumət İnformasiya Sistemi”ndə (EHİS) yerləşdirilməsi ilə bağlı tədbirlər görülməsi | |